**Kifayət Nurəddin qızı BUNYATOVA**
*Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinın dosenti*
*E-mail: azadova.aysu@mail.ru*

# AZƏRBAYCAN KİNOSUNUN FƏDAKAR TƏDQİQATÇISI MƏSUMƏ RZAYEVA

**Xülasə:** Təsvir olunan obyektin, faktın, hadisənin xarakterindən, çatdırılan məlumatın konkret yükündən, ümumiləşdirmənin, alınan nəticələrin miqyasından, dərəcəsindən, tipikləşdirmə ölçülərindən, ədəbi-üslubi vasitələrin xarakterindən və s. asılı olaraq, ekran yaradıcılığının digər növləri kimi sənədli kino növünün də özünəməxsus çeşidləri, janrları mövcuddur. Qeyd edək ki, sənədli filmin janrları zaman-zaman mutasiya edir, dəyişilir, eksperiment yolu ilə yeniləri yaranır.
**Açar sözlər:** *təsvir, kadrarxası mətn, informasiya, sənəd, fakt, tədqiqat.*

**UOT:** 791.43
**DOİ:** 10.54414/lxje7062

## Giriş

Milli kino sənətimizin tarixindən, estetik problemlərindən xeyli sayda xülasələr, məqalələr və kitablar yazılmışdır. Belə kitab və məqalələrin müəlliflə+rindən biri də kinoşünas Məsumə Rzayeva olmuşdur.

Azərbaycan kinosunun inkişafını və geniş formalaşma miqyasını imkan dairəsində tam çatdırmaqla, onun əsas mərhələlərini, inkişaf dövrlərini əks etdirmək bugün kinoşünaslar qarşısında duran əsas vəzifədir.

## Əsas mətn

Sənədli filmlərimizin öyrənilməsində, təhlilində sənətşünas Məsumə Rzayevanın rolu çox böyükdür. Məsumə Rzayevanın kinomuzun inkişafına, kinomuzda olan müəyyən problemlərin həllinə həsr olunmuş onlarla məqaləsi vardır. O, sənədli filmlərimizə, ümumiyyətlə kino sənətimizə həsr olunmuş bir neçə kitabın müəllifidir. “Elm” nəşriyyatı tərəfindən buraxılmış “Azərbaycan sənədli kinosu” (1920 – 1965) kitabı o dövrdə Azərbaycan Kinematoqrafçılar ittifaqının xüsusi mükafatına layiq görülmüşdür. Bu kitabda Azərbaycan sənədli kinosunun əsasını qoyan Muxtar Dadaşov, Mirzə Mustafayev, Seyfulla Bədəlov və başqalarının yaradıcılığı haqqında ətraflı məlumat verilmişdir.

Ölkəmizdə sənədli filmlər sahəsində istedadlı sənətkarlar – rejissorlar, operatorlar yetişmişdir. Sənədli kinonun inkişafında kino tənqidçilərin də xüsusi rolu var. Sənətşünas Məsumə Rzayeva da öz taleyini Azərbaycan sənədli filmlərinin öyrənilməsinə, təhlilinə həsr etmişdir. Məsumə xanım öz peşəsinə qəlbən, ruhən bağlı bir insan olmuşdur. O, öz işindən – sənədli filmlərin təhlili və tədqiqindən, onun tamaşaçı arasında təbliğindən xüsusi zövq almışdır. Bunu onun yazılarında və məqalələrində hiss etmək mümkündür. O, sənədli filmlərdən öz məqalələrində məhəbbətlə söz açırdı. Sənətə belə vurğunluq Məsumə xanımın elmi fəaliyyətində özünü biruzə vermişdir.

Məsumə xanım Bakı kinostudiyasının sənədli filmlər şöbəsində redaktor, daha sonra isə baş redaktor işləmişdir. Kinostudiyada işlədiyi illərdə o, seçdiyi sənətə daha da qəlbən bağlanmışdır. O, sənədli filmlərin sirlərini daha dərindən, hərtərəfli öyrənməyə çalışmışdır. Kino xadimlərimizdən Mikayıl Mikayılov, Rza Təhmasib, Muxtar Dadaşov, Ağarza Quliyev və s. ilə birgə işləməsi onu kino sahəsində daha da məhsuldar fəaliyyət göstərməyə ruhlandırmışdır.

Sənədli filmləri dərindən, hərtərəfli öyrənməyi, incəsənət sirlərinə daha da dərindən yiyələnməyi qarşısına məqsəd qoyan Məsumə xanım 1962–ci ildə Memarlıq və İncəsənət İnstitutunun aspirantura şöbəsinə qəbul olunmuş, uzun illər Bakı, Moskva və digər şəhərlərin kitabxanalarında axtarışlar aparmış, arxivlərdə işləyərkən yeni sənədlər ortaya çıxarmış, onları dövrlər üzrə müəyyən etmiş, sənədli filmlərin janrları, xarakterləri, onların bir – birlərinə münasibətləri haqqında tədqiqat işləri aparmışdır. Bu işlər gözəl nəticə vermiş, Məsumə xanım məşğul olduğu sahəyə aid bir sıra dəyərli fikirlər irəli sürmüşdür.

Məsumə Rzayevanın çıxışlarında, məqalələrində xüsusi əhəmiyyət verdiyi bir cəhət olub. Belə ki, onun fikrincə sənədli filmlər tamaşaçının qəlbinə yol tapmalı, ruhunu oxşamalı güclü təsir qüvvəsinə malik olmalıdır, yeri gələndə isə kədərləndirməli, hiddətləndirməlidir.

Məsumə xanım elmi – yaradıcılıqla məşğul olarkən bir an da unutmamışdır ki, o sənədli film yaradan rejissorların köməkçisi, yeri gələndə isə istiqamətləndiricisidir. Onun əsərləri, məqalələri təkcə geniş oxucu kütlələrinə gərək olmayıb, sənədli film yaradan kino xadimlərimizin masaüstü kitabına çevrilmişdir.

Məsumə Rzayeva sənədli filmlərlə əlaqəli keçirilən bir neçə elmi konfransın, simpoziumun iştirakçısıdır.

Məsumə xanım sənədli filmlərdən danışarkən onun əsas qayəsini aydın müəyyənləşdirir: “Sənədli film incəsənətdir. Onun üzərində incəsənətin hər hansı növündə olduğu kimi həyati hadisələri nəzərə çatdırmaq deyil, onların ictimai səviyyəsini açmaq vəzifəsi durur.”

Filmləri təhlil edərkən Məsumə Rzayeva həmin filmin yaradıcı heyətinin keçdiyi yolları sanki bir də təzədən özü keçir, əsərin qəhrəmanlarının hiss və həyəcanlarına, üzləşdikləri çətinliklərə həmdərd olur, onların qəhrəmanlıqlarına, nailiyyətlərinə görə qürur hissi keçirir. Məsumə Rzayevanın keçirdiyi bu hisslər, həyəcanlar onun yazılarında da öz əksini, ifadəsini tapır.

Məsumə xanım Moskva Elmi Tədqiqat Kino İncəsənət İnstitutunun tapşırığı ilə “Sovet kinosu sənədlərdə” çoxcildliyinin “Azərbaycan kinosu” bölməsi üçün 1917 – 1980 - cı illər üzrə sənədlər toplamış və onlara elmi izahlar yazmışdır.

1985 – ci ildə Azərbaycan Elmlər Akademiyasının Mərkəzi kitabxanası onun tərtib etdiyi 1920 – 1980 - cı illər ərzində C.Cabbarlı adına “Azərbaycanfilm” kinostudiyasında istehsal edilmiş xronikal sənədli, elmi – kütləvi və sifarişlərlə çəkilmiş filmlərin kataloqunu və 1986 – cı ildə “Elm” nəşriyyatı onun “Partiya və Azərbaycan kinomatoqrafçılarının yaradıcılıq axtarışları” adlı kitabını çap etmişdir ki, bu da xüsusi əhəmiyyətə malikdir.

Bu kitablarda Məsumə Rzayeva filmləri hissələrə bölmüşdür. Demək olar ki, araşdırdığı həmin dövrün bütün filmləri təhlil olunmuşdur. Burada sənədli film xadimlərinin yaradıcılığı yığcam və hərtərəfli təsvir olunmuşdur.

Bu kitabda Məsumə xanım sənədli film ustalarımızın qarşısında ciddi vəzifələrin durduğunu qeyd edərək müasirlərinin zəngin dünyasını, öz amalları uğrunda mübarizə aparan, yaradan insanların obrazlarını sənədli kadrlar vasitəsiylə gələcək nəsillərə çatdırmağı vacib və şərəfli sayırdı. Müəllif kinoportret, kinooçerk, mənzərə filmlərinin çəkilməsi sahəsində sənədli film ustalarının işini geniş işıqlandırmışdır. Kitabda kinoportretlərin təhlilinə xüsusi yer verilmişdir. Burada müxtəlif peşə sahiblərinin, müxtəlif tabeli insanların həyatına, əməyinə həsr olunmuş filmlərə xas xüsusiyyətlər hərtərəfli açıqlanmışdır.

Müəllif fəhlələrin həyatından bəhs edən filmlərdən danışarkən, bu filmlərdə şəxsiyyətin formalaşmasını, qəhrəmanın daxili aləminin açılmasını və xarakterlərin aşkara çıxarılması prosesini göstərməklə bərabər bu filmlərin çatışmamazlıqlarını da qeyd etmişdir. Məsumə Rzayeva əsərində göstərir ki, təsirli, parlaq obrazlar yaratmaq üçün qəhrəmanı çətinliklərdə, toqquşmalarda, mübarizədə vermək lazımdır.

Kitabda partiya və hökumətin kinonun inkişafı ilə əlaqədar müxtəlif illərdə çıxan qərarları da yada salınmışdır.

“Məsumə Rzayeva həmin bu kitabda da Azərbaycanın gənc kino ustalarına ayrıca yer ayırmışdır. Burada 60 – cı illərdə fəaliyyətə başlamış R. Şahmalıyev, O. Mirqasımov və başqalarının yaratdıqları “Bakıda bir gün”, “Salam Azərbaycan”, “İnanıram qayıdarsan”, “Qara Qarayev”, “Azərbaycan haqqında etüd”, “Çörək” və. s filmlərin geniş təhlili verilmişdir“.

Sənədli kino bizi əhatə edən varlığın ayrı-ayrı fakt və hadisələrinin bədii şəkildə təcəssümüdür. Demək kinopublisistikanın əsasını canlı həyat hadisələri təşkil edir. Bəs bu fakt və hadisələri ekranda əks etdirən sənədli kino yaradıcıları hansı yaradıcı keyfiyyətə malik olmalıdırlar? Bir çox kino tənqidçilər bu suala dəfələrlə cavab vermişlər. Sənədli kino yaradıcısı bizə qədər çəkilmiş kino salnamələrinin dərin tədqiqatçısı, yeni faktlar tapıb aşkara çıxaran bir kəşfiyyatçı insan, qəlbinin zərifliklərini duyan, hiss edən, ətrafında baş verən hadisələri sərrast görən, dərk edən, onların mahiyyətini araşdırmağı bacaran bir adam olmalıdır. Belə bir adam həm də kino texnikasını yaxşı bilməli, bu texnikanın imkanlarından geniş və yerində istifadə etməlidir. Sənədli kino yaradıcısı adi müşahidəçi ola

bilməz. O, həyatda baş verən hadisələrdə bilavasitə iştirakçı olmalı, həm də adi iştirakçı deyil, əsl həqiqi publisist kimi çalışmalıdır.

Məsumə Rzayeva həmişə təhlil etdiyi filmlərə, ümumiyyətlə sənədli kinoya yuxarıda sadalanan prizmalardan yanaşmışdır.

1920–ci ilin mayında "XI Ordu hissələri Bakıda hərbi nümayiş zamanı" adlı xronika çəkilmişdir. Bu filmdə, o dövrki Bakının köhnə küçələri öz əksini tapmışdır. Görkəmli dövlət xadimləri N.Nərimanov, Ə.H.Qarayev və başqaları nümayiş iştirakçılarını qarşılayan yerdə lentə alınmışdır.

Bu film sənədli kino sahəsində Bakıda ilk təşəbbüs idi. Bu hadisə Azərbaycanda sənədli kinonun doğulduğu barədə müjdə verirdi. Bütün bunlar barədə Məsumə Rzayevanın "Elm" nəşriyyatı tərəfindən buraxılmış "Azərbaycan sənədli kinosu" (1920 – 1965-ci illər) kitabında söhbət açılmışdır. Bu kitabda respublikada sənədli kinonun 45 ildə keçdiyi yaradıcılıq yolunun, inkişafının aydın təhlili verilmişdir. Məsumə Rzayeva Azərbaycan kino sənətinin tarixini aramla araşdırmış, elmi – tarixi cəhətdən dəyərli tədqiqat əsəri yaratmışdır.

Buradakı məqalələr beş fəsil üzrə bölünmüşdür: "Azərbaycan sənədli kinosunun yaranması" (1920 –1930 - cu illər); "Azərbaycan sənədli kinosu 30 – cu illərdə" (1930 –1940 - cı illər); "Böyük vətən müharibəsi Azərbaycan sənədli kinosunda" (1941–1945- ci illər); "Azərbaycan sənədli kinosu müharibədən sonrakı ilk dövrdə" (1946–1952); "Azərbaycanın müasir sənədli kinosu". Bu başlıqlar altında toplanmış məqalələrdə müəllif sənədli kino incəsənətimizin tarixinə mərhələlər üzrə nəzər yetirmişdir. Onun arxiv materiallarına, kino lentlərinə, tarixi sənədlərə müraciət edərək çıxardığı nəticələr obyektivliyi, dolğunluğu ilə diqqəti cəlb edir. M. Rzayeva monoqrafiyada faktları yalnız sadalamaqla kifayətlənməmiş, hər bir dövrdə yaranıb zamanın səsinə səs verən sənədli filmlərimizə baxışını da bildirmişdir. Maraqlı cəhət həm də burasındadır ki, müəllıf sənədli kinomuz sahəsində olan nöqsanlardan və çatışmamazlıqlardan da danışmışdır.

Məsumə Rzayevanın "Azərbaycan sənədli kinosu" kitabı respublikanın sənədli filmlərinə nəzər baxımından nəşr edilmiş ilk kitabdır. Müəllif kitabda Azərbaycan sənədli kinosunun demək olar ki, yarım əsrlik geniş bir dövrünü əhatə edən müxtəlif materiallardan istifadə etmişdir. Əsərdə nəinki tam metrajlı filmlər, oçerklər, "kinoportretlər", hətta bütün kino jurnallar, adicə sujetlər belə təhlil edilir.

Məsumə Rzayevanın araşdırmalarından aydın olur ki, ölkəmizin sənədli kino rejissorları həqiqətən də bir sıra dəyərli, təbliğat baxımından ən qabaqcıl qəzetlərdən heç də geri qalmayan lentlər yaratmışlar. Bu filmlər qabaqcıl ideyaların, elm və texnikanın ən yeni nailiyyətlərinin təbliğində xeyli rol oynayıb. İdeyaların təbliği uğrunda mübarizədə ən kəsərli silah olan satirik və tənqidi kinodan bacarıqla istifadə edə bilmək, əlbəttə sənədli kino mütəxəsislərinin böyük uğurudur.

Müəllif hər bir filmi son dərəcə dəqiqliklə təhlil edir. Bu 20-30 - cu illər, müharibə dövrü, müharibədən sonrakı dövr haqqında təsəvvür yaratmağa kömək edir. Onun rejissor, ssenari, operator işi baxımından daha tipik kadrları, lentləri araşdırması da təqdirə layiqdir. Uğurlu təhlil baxımından Məsumə Rzayevanın araşdırdığı "Xəzər neftçiləri haqqında povest" və "Dənizi fəth edənlər" kinolentləri xüsusilə qeyd edilməlidir. Bu araşdırmalarında müəllif oxucunu filmləri yaradanların hansı əsas yollarla məqsədlərinə nail olduqları ilə əyani surətdə tanış edir. Təhlildən məlum olur ki, filmlərin çəkilişində başlıca məqsəd sənədli material əsasında ümumi məzmunun obrazlı bədii həllini yaratmaq; bu kinoxronikanı bədii publisistikaya çevirmək məsələsini kino yaradıcıları uğurla həll edə bilmişlər. Bu məsələni həll etmək üçün də əsas amil filmin qəhrəmanı - insan olmuşdur. Obrazın hər bir hərəkətinin əsas xüsusiyyətlərini, xarakterinin mahiyyətini kinoaparatın obyektivi ilə bacarıqla çəkə bilmək, onu bütün hadisələrin özəyi kimi vermək kino ustalarına nəsib olub. Onlar insanın mənəvi gözəlliyini, böyüklüyünü göstərə bilmişlər. Kitabda göstərildiyi kimi sənədli kino ustasının filmdə nail olduğu uğur məhz insanla bağlıdır. Bu insan sadəcə olaraq obyektiv qarşısında çəkiliş xatirinə dayanmır. O, işləyir, yaradır, çətinliklərdən qorxmur, öz məqsədinə nail olmaq üçün mübarizə aparır. Məhz bu cür insan obyektivə "düşdükdə" film uğurlu olur. Məsumə xanım bəzi sənədli filmlərin, xüsusilə də 40 – cı illərin kino-

lentlərinin, hətta mükafata layiq görülmüş “Sovet Azərbaycanı” filminin qüsurlarını qeyd edir. Bu filmlərdəki dəbdəbə, sxematiklik xüsusi nəzərə çatdırılır. Tədqiqatçının fikrincə sənədli film janrı bütün imkanları, ifadəliyi ilə əmək adamlarını tərənnüm etməlidir. Bu kimi məsələlərin öhdəsindən gələn filmləri müəllif ən uğurlu lentlər kimi sadalayır.

Məsumə Rzayevanın kinooçerk, kinoportret, bioqrafik filmlər, müxtəlif kino janrları haqqındakı mülahizələrində sözsüz ki, maraqlı, xeyirli fikrlər çoxdur. Kitabda rejissor, ssenarist və operatorlarımız üçün hələ bu gün də mühüm əhəmiyyət kəsb edən bir sıra problemlər araşdırılır. Məsələn, sənədli filmdə səhnələşdirmənin, bəzi quraşdırmaların bu və ya başqa formasından istifadə etmək olarmı sualına bu kitabda düzgün cavab tapmaq olar.

Məsumə xanım göstərir ki, əgər sənədli kino çəkən real həqiqətə oxşar hər hansı quraşdırma səhnələrdən istifadə edirsə, deməli bu, onun gücünü yox, zəifliyini göstərir.

Məsumə Rzayeva özünün “Azərbaycan sənədli kinosu” kitabında neft mövzusunda çəkilmiş filmlərin təhlilinə böyük bir yer ayırmışdır.

Mikayıl Mikayılovun “Qaliblər adası” filmi tamamilə publisist filmdir. Rejissor öz hekayəsini uzaq keçmişdən, o dövrdə mövcud olan, dənizdə heç kimə məlum olmayan balaca və vəhşi bir adacıq ilə başlayır. Bu adanın daimi sakinləri zəhərli ilanlar idi. Amma, yalnız bu ərazidə suyun üzərində kiçik qızılı rəngli qabarcıq görmək mümkün idi. Beləcə, çox illər davam etmişdir. Ancaq bugün? – Ekranda, Artem adını daşıyan ada görüntüyə gəlir. Biz adada ucaldılmış neft buruqlarını görürük. Onlar tədricən dənizin içərilərinə doğru irəliləyirlər. İnsanlar burada yaşayır və işləyirlər. Buranın sakinləri üçün hər bir şərait yaradılmışdır: evlər və məktəblər, uşaq baxçaları, xəstəxanalar və hətta Mədəniyyət sarayı.

Bura gələnlərin məqsədi əlbəttə ki, yalnız işdir. Onlar yeni neft mənbələri aşkarlamağa çalışırlar. Rejissor daha sonra filmdə neftçiləri və geoloqları birləşdirən səmimi dostluqdan bəhs edir. Bu oçerkin qısaca tərkibi də bundan ibarətdir.

A. R Quliyevin “Xəzər nefti” filmində əsas diqqət neftin çıxarılmasının müasir texnikayla həyata keçirilməsinə, neft buruqlarının çoxalmasına, dəniz dibindən neftin çıxarılmasının yeni metodlarına yönəldilmişdir. Ekranda bir-birinə birləşmiş sonsuz sayda borular görüntüyə gəlir. Onların içərisiylə dənizin möcüzəsi olan “qara qızıl” axır. Hər gün yeni neft mədənləri aşkar edilir. Bir neft mədənində necə qazıntı işləri getdiyi göstərilir, digərində isə yeni qazıntı işlərinin aparılması üçün müqavilə imzalanır.

Üçüncü film, rejissor Ş. Şeyxovun çəkdiyi “Neft kəşfiyyatçıları” filmi bütünlüklə geoloji kəşfiyyat işlərinə həsr olunmuşdur. Biz geoloqların dənizdə partlayış vasitəsi ilə neft mənbələrinin yerini dəqiqləşdirdiklərini və yeraltı sərvətləri aşkara çıxartdıqlarını, yeni neft buruğunun quraşdırılması üçün hazırlıq işlərini apardıqlarını görürük. Geoloqlar təkidlə bildirirlər ki, bu yerdə neft olmalıdır və bu zaman çoxdan gözlənilən neft fontan vurur. Kəşfiyyatçılar isə təbii sərvətlər axtarışını davam etdirirlər.

Beləliklə, əgər birinci filmdə Artem adasında neft çıxarılmasının lap birinci mərhələsindən, ikinci filmdə neft mədənlərinin genişlənməsi və yeni texniki nailiyyətlərdən bəhs edilirsə, üçüncü filmdə gələcəkdə yeni neft mənbələrinin aşkara çıxarılmasında böyük rolu olan geoloq və neftçilərin birgə əməyindən bəhs olunur.

Tanınmış rejissor Yoris İvens “İnsan sənədli filmlərdə” adlı qeydlərində yazır: “Sənədli film rejissoru ekranda qəhrəmanın davranış və hisslərini bütünlüklə əks etdirə bilən bir insanı seçməlidir. Qəhrəmanın yalnız adi fəaliyyətini deyil, onun hadisələrə olan münasibəti və emosiyasını əks etdirmək istərkən, bu insanı seçərkən seçimdə çox diqqətli olmaq lazımdır”. İvensin filmlərində özünü tamamilə doğruldan bu fikirlərlə razılaşmaq lazımdır.

Roman Karmenin “Xəzər neftçiləri haqqında dastan” filmindəki “İlk neft” səhnəsi insanın mənəvi dünyasının açılmasına həsr olunub. “Neft kəşfiyyatçıları” filminin “İlk neft” səhnəsi isə faktların quru və ehtirassız birləşdirilməsindən ibarətdir.

Digər bir nümunə - “Xəzər Nefti” filminin rejissoru A.R.Quliyev filmdə Kaveroçkini əks etdirmiş, lakin ondakı xarakteri açıb göstərə bilməmişdir. 5 il sonra R. Karmen “Xəzər neftçiləri haqqında dastan” filmini çəkərkən öz qəhrəmanına fərqli yanaşmışdır. Karmen filmdə Kaveroçkinin insani keyfiyyətlərini, öz işinə məhəbbətini, çətin anlarda belə işinin öhdəsindən məharətlə gəlməsini, mənəvi təmizliyini əks etdirmişdir.

Rejissorun öz sənədli filmində digər filmlərdəki sitat və materiallardan istifadə etməsi plagiat deyil. Təbii ki, başqasının tapıntısının mənimsənilməsi və ya ştamplama vərdişi tamamilə yol verilməzdir, lakin sözügedən filmdə sitatlar və materiallar örnək kimi istifadə olunur. Hər üç filmdə neft buruqlarının quraşdırılması və görülən hazırlıq işləri, daha sonra neft çıxarılması və.s epizodları tamamilə oxşardır.

R.Karmen Bakı neftçilərinin qəhrəmanlığından bəhs edən kino epopeyasının yaradıcısıdır. " Xəzər neftçiləri haqqında dastan" (1953) və "Dənizi fəth edənlər" filminə görə 1960 – cı ildə V. I. Lenin adına mükafata layiq görülmüşdür. Xəzər neftçilərinin qürur və əzmli nümayəndələri – Mixail Kaveroçkin, o dövrdə hələ gənc neft ustaları Qurban Abbasov, Xanoğlan Bayramov, Kazım Aşumov, Fərid, Akif Cəfərov və başqaları bu filmlərin sevimli qəhrəmanlarına çevrilmiş və heç bir mübaliğəsiz, əsl sadə insanlar – dövrünün müasirləri kimi təsvir olunmuşdurlar. Roman Karmen sənədli kinonun bədii vasitələrindən istifadə etməklə dəniz neftçilərinin real həyatını yarada bilmiş, çoxlu parlaq portretlər yaratmışdır.

" Xəzər neftçiləri haqqında dastan" və "Dənizi fəth edənlər" filmlərindən sonra neft mövzusuna yenidən müraciət edənlər olmuşdur. Məsələn, "Neft ustaları" (rej-opeator M. Mustafayev,1955), "Akif Cəfərovun dəstəsi"(rej. Z. Kazımova, 1960), "İstedadlı köməkçilər"(rej. A. Musayev, 1960), "Bizim Gülbala"(rej.İ. Xəlilov, 1961) filmlərini misal gətirmək olar. Bu filmdə Roman Karmenin təsiri özünü biruzə verir.

"İstedadlı köməkçilər" filmi neft mədənlərində avtomatika və mexanikanın tətbiqi problemlərinə həsr olunmuşdur. Filmdə müasir texnikanın tətbiqi, yeddi illik planın həyata keçirilməsində alim və mühəndislərin səyi əks olunur.

Filmin müəllifi əsas diqqəti texnikaya yönəltdiyi üçün insanlar diqqətdən kənarda qalıblar. Digər bir film-"Bu Pesçanda oldu" filmi 1961 – ci il 29 noyabrda Pesçan adasında gözlənilmədən baş verən yanğına həsr olunub. Əsasən, bu film hadisə yerindən reportajdan ibarətdir.

Dənizdəki neft mədənlərində adi iş gedir. Buruqlardan birində su güclü fontan vurur. O, özü ilə birgə neft və qumu kənara yayır. Yanğının baş verməsi üçün yüngül bir qığılcım belə bəs edər. Lazımi tədbirlər görülür. Amma buna baxmayaraq, yanğın başlayır. Minlərlə ton neft yanır. Buna yol vermək olmaz. Təcrübəli mütəxəsislər yığılaraq yanğınla mübarizə aparmağın yollarını fikirləşirlər. Alovlanmış neft mədəninin ətrafında alovsöndürən tankerlər üzürlər.

Qərara gəlirlər ki, yanğının qarşısını yalnız partlayışla almaq olar. Bu partlayışı təşkil etmək üçün texniki vasitələrin hazırlanması, gətirilməsi ekranda əks olunur. Bu, ən həyəcanlı səhnədir – yanğını söndürmək mümkün olacaqmı? Bu səhnələrin qurulmasında montajdan çox gözəl istifadə olunmuşdur. Kadrların bir birini sürətlə əvəz etməsi həyacanı daha da artırır.

Budur, artıq mexaniki ox hazırdır. Onu yanan buruğa tərəf aparırlar. Oxatanın ucunda olan partlayıcı qutu partlayır. Kənardan bunu isləyən hər kəs donub qalır. Partlayış... Bütün tankerlərdən su vurularaq alov söndürüldü. Cəsur neftçilərin əməyi nailiyyətlə nəticələndi.

Əvvəlki filmlərdə olduğu kimi bu oçerkdə də 3 həftə ərzində gecə-gündüz yanğınla mübarizə aparan insanlar haqqında çox az danışılır və bu itkini filmin digər yaxşı tərəfləri ört- basdır edə bilmir. Təəssüf ki, rejissor Axundov neft buruqları ilə mübarzə zamanı insanları hərəkətdə, fəliyyətdə göstərmək imkanından yetərincə yararlanmadı.

Çəkilişlər operatorlar tərəfindən əsasən təbiətdə, günəş şüalarının işıqlandırılmasından istifadə etməklə çəkilmişdir. Operatorlar, həmçinin, işıqlandırıcı aparatlar vasitəsi ilə çəkilmiş interyerləri də filmdə əks etdirmişlər. Operatorlar filmin montajı üçün rejissora çox gözəl baxımlı materiallar verdilər. Obyektlərin düzgün işıqlandırılması və rəng müxtəlifliyinin zənginliyi sayəsində epizodların ümumi dolğunluğu filmdə təsvirin bədii təsirini artırdı.

Operatorların gözəl xüsusiyyətlərindən biri də odur ki, onlar qəhrəmanları çətin dramatik vəziyyətlərdə göstərə bilirdilər. Kinoreportaj metodunun istifadəsi operatora filmdə yalnız hadisələr burulğanını deyil, həm də insanların bu hadisəyə münasibətini də əks etdirmək imkanı verdi. Bəzi kadrları, məsələn, ilk neftin gəlişini gözləyən Mixail Kaveroçkinin borulardakı səsə qulaq asması, yanğınla mübarizə aparan insanlar, qasırğa gecəsində insanların portretləri və.s misal gətirmək olar.

**Nəticə**

Ümumiyyətlə kinomuzun tarixi müxtəlif dövrlərdə dövrün özünə uyğunlaşdırılmış, dəyişdirilmişdir. Bakıda 25 ildən artıq yaşayıb yaratmış A.M. Mişon həm təcrübəli fotoqraf, həm də kinooperator olmuşdur. Bakı elmi foto dərnəyinin katibi və nəşriyyat sahibi olmuşdur. 1879 - 1905-ci ilə kimi Bakının mənzərələrinin, neftin çıxarılması və emalının, neft mədənlərində baş verən yanğınların fotoşəkillərini çəkmişdir.

Kinoşünas alim Məsumə Rzayeva 1971-ci ildə "Elm" nəşriyyatında çapdan çıxmış "Dokumentalnoe kino Azerbaydjana" kitabında bu elan barədə xəbər vermişdi. Lakin çox təəssüf ki, bu məlumata nə o vaxt, nə də sonralar lazımi diqqət yetirilməmiş və hətta tezliklə onun mövcudluğu unudulmuşdur.

Məsumə xanımın əsrlərini oxuyarkən, bu əsərlərin dilinin səlisliyi, sadəliyi insana xoş təsir bağışlayır. Onun, filmlərin təhlili haqqında olan məqalələrini, yazılarını oxuyarkən sanki, ekran önündə oturub həmin filmə tamaşa edirsən.

Bu təhlillər ruhən insanı həmin filmdəki hadisələrin cərayan etdiyi dövrə aparır, qəhrəmanların düşdüyü müxtəlif situasiyalar göz önündə canlanır. Bu isə Məsumə xanımın saf, gözəl daxili aləminin, onun insana olan böyük məhəbbətinin bariz nümunəsidir.

M. Rzayevanın "Azərbaycan Sənədli kinosu" kitabı sənədli kinomuz və deyərdim ki, bütünlükdə kino sənətimiz üçün olduqca dəyərli bir elmi mənbədir. Bu kitabda sənədli filmlərin tarixi dövrlər üzrə bölünmüş, hər bir bölümdə həmin dövrün ictimai, siyasi şəraitini əks etdirən filmlərin təhlili verilmişdir.

**ƏDƏBİYYAT SİYAHISI:**

1. Azərbaycan kinosu. Filmlərin izahlı kataloqu. II Cild. Nağıl evi, 2003, 240 s.
2. Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi. Dövlət Film Fondu. Kino-Bülleten. IV buraxılış. Bakı: Apostroff, 2011.
3. Dadaşov A. Gerçəkliyin astanasında. Bakı: İşıq, 1992, 134 s.
4. Hüseynov Ə. Kino terminlərinin izahlı lüğəti. Bakı: "Elm və təhsil", 2015, 128 s.
5. Kazımzadə A. Azərbaycan kinosu, II cild, Bakı: Nağıl evi, 2003, 373 s.
6. Kazımzadə. A. Azərbaycan kino tarixi oçerkləri. Bakı: "Tural" nəşriyyatı, 2001, 201 s.
7. Kazımzadə A. Bizim "Azərbaycanfilm". 1923-2003-cü illər. C.Cabbarlı adına "Azərbaycanfilm" kinostudiyası. Bakı: Mütərcim, 2004, 350 s.
8. Kino sənəti məsələləri. "Müstəqil -8" nəşriyyatı, 1999, 128 s.
9. Qulubəyov. Ə. Sovet Azərbaycanının kinosu. Bakı, 1958, 90 s.
10. Sənədli kinomuzun tarixindən. Ədəbiyyat və İncəsənət qəzeti, №2(1557), 10 oktyabr, 1970.
11. Джулай Л. Документальный иллюзион: Отечественный документализм, опыт социального творчества. М.: Материк, 2005, 428 с.
12. Кино. Энциклопедический словарь. М.: Советская энциклопедия, 1986. 637 с.
13. Кино не для всех. Интервью с В. Двинским // "Рабочий путь", 2006. № Рзаева. М. Документальное кино Азербайджана. Б., 1971 г., 203 с.
14. Рзаева М. Партия и творческие поиски кинопублицистов Азербайджана. Б.: Элм, 1986, 188 с.

**Кифаят Нураддин кызы БУНЯТОВА**
*Доцент Азербайджанского Государственного Университета Культуры и Искусств*
*E-mail: azadova.aysu@mail.ru*

## МАСУМА РЗАЕВА, ПРЕДАННЫЙ ИССЛЕДОВАТЕЛЬ АЗЕРБАЙДЖАНСКОГО КИНО

**Резюме**: Как и другие виды экранного творчества, документальное кино имеет свои разновидности и жанры в зависимости от характера описываемого предмета, факта, события, конкретной нагрузки сообщаемой информации, масштаба и степени обобщения, полученных результатов, размеров типизации, характера литературно-стилистических средств и т. д. Следует отметить, что время от времени жанры документального кино мутируют и меняются, а новые создаются путем экспериментов.
**Ключевые слова**: *изображение, закадровый текст, информация, документ, факт, исследование*

**Kifayat Nuraddin BUNYATOVA**
*Azerbaijan State University of Culture and Arts Associate professor*
*E-mail:azadova.aysu@mail.ru*

## MASUMA RZAYAVA, DEDİCATED RESEARCHER OF AZERBAİJANİ MOVİES

**Summary:** Like other types of screen creativity, documentary films have their own varieties and genres depending on the nature of the described subject, fact, event, specific load of the information being reported, scale and degree of generalization, obtained results, size of typification, nature of literary and stylistic means, etc. It should be noted that genres of documentary films mutate and change from time to time, and new ones are created through experimentation.
**Keywords:** *image, off-screen text, information, document, fact, research*

**Daxil olub:** 29.08.2022